# Müdrik siyasət və iqtisadi dirçəliş təməlləri

Ölkəmizdə müstəqillik illərində iqtisadiyyatın bütün sahələrində qazanılmış nailiyyətlərə ulu öndər Heydər Əliyevin müəllifliyi və rəhbərliyi ilə həyata keçirilən islahat və Dövlət proqramları, inkişaf konsepsiyaları və strategiyaları nəticəsində nail olunub.

Azərbaycan bu gün regionun bütün siyasi və iqtisadi məsələlərinin həllində əvəzolunmaz iştirakçı, əsas söz sahibidir. Ölkəmiz yüksək inkişaf etmiş iqtisadiyyatı ilə bu sahədə dünya sisteminə öz adını həkk edib. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin hakimiyyəti dövründə misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər bu gün ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaradıb.



Bəzi ölkələrdə yaşanan ciddi iqtisadi problemlər, qiymətlərin sürətlə artması, valyuta bazarlarında kəskin təlatümlər fonunda Azərbaycan iqtisadiyyatı yüksək dayanıqlılıq nümayiş etdirir, həyata keçirilən siyasətin alternativsiz olduğunu bariz şəkildə göstərir.

(davamı 7-ci səhifədə)



# Müdrik siyasət və iqtisadi dirçəliş təməlləri

(əvvəli 1-ci səhifədə)

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və Prezident İlham Əliyevin yaradıcılıqla və uğurla inkişaf etdirdiyi Azərbaycanın iqtisadi inkişaf strategiyasının formalaşması mərhələlərinin, onun sürətli inkişafını təmin edən başlıca amillərin tədqiqi və dəyərləndirilməsi ulu öndərin iqtisadi irsinin öyrənilməsində və ölkəmizin perspektiv inkişafının prioritetlərinin, məqsəd və hədəflərinin müəyyən edilməsində, reallaşmasında müstəsna əhəmiyyətə malikdir.







Tale elə gətirib ki, istər sovet dönəmində, istərsə də müstəqillik illərində Heydər Əliyev ölkə iqtisadiyyatını böhran vəziyyətində qəbul edib. Amma hər iki dönəmdə də Heydər Əliyevin fəaliyyəti nəticəsində ölkə qısa müddət ərzində böhrandan çıxıb və iqtisadi inkişaf yoluna qədəm qoyub. Tarixi faktlar göstərir ki, 1970-1980-ci illəri əhatə edən on il ərzində ölkəmizin kənd təsərrüfatına daha çox sərmayə qoyulub və bu da Azərbaycanı digər müttəfiq respublikalardan önə keçirib. Müstəqillik illərində də Heydər Əliyev tərəfindən iqtisadi böhrandan xilas olmaq üçün ciddi islahatlar həyata keçirilib.

Ulu öndər o dövrdə prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edərkən deyirdi ki, respublika iqtisadiyyatı demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik. Heydər Əliyev iqtisadi platformasında islahatlar dedikdə onu bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək nəzərdə tutulurdu.

Dahi şəxsiyyətin ölkə əhəmiyyətli nailiyyətlərindən biri də neftlə bağlıdır. Azərbaycan neftinin dünya bazarına çıxarılması, əldə olunan gəlirlə büdcəni möhkəmləndirmək, əhalinin sosial rifahının yaxşılaşdırılmasını təmin etmək həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi idi. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında müqavilə imzalandı. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı. Heydər Əliyev həm də Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan və regionun kifayət qədər əhəmiyyətli layihəsi hesab olunan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də təməlini qoyub, eyni zamanda neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədilə Dövlət Neft Fondunun yaradılması kimi xidmətləri ilə də yadda qalıb. Heydər Əliyev deyirdi: "Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər - təkcə neft sahəsində deyil, Azərbaycan iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır".

Ümummilli lider Heydər Əliyev "Siyasət və iqtisadiyyat bir-birini tamamlayır" prinsipi və "Neft xalqımızın milli sərvətidir" konsepsiyası ilə Azərbaycanın daxili və xarici siyasətinin vektorlarını müəyyən etdi. Ulu öndər Heydər Əliyev müəllifi olduğu neft strategiyası ilə Azərbaycanı Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və dünyanın neft mərkəzlərindən birinə çevrilmiş regionun inkişafı üçün keyfiyyətcə yeni iqtisadi model formalaşdıran dövlətə çevirdi. Bu, Azərbaycan dövlətinin milli təhlükəsizliyinin vacib elementi idi, çünki dövlətin iqtisadi təhlükəsizliyi onun milli təhlükəsizliyinin tərkib hissəsidir. Dövlətin milli təhlükəsizliyinin vəziyyətini və ya səviyyəsini müəyyən edən iqtisadi, siyasi, hərbi, elmi, texnoloji və sosial aspektlər və onlara bağlı amillər birbaşa iqtisadi təhlükəsizlikdən asılıdır. Azərbaycanın iqtisadi inkişaf modeli təcrübəsi göstərdi ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin müstəqilliyinin zəmanətinə, sosial rifahın təmin olunması ilə həm də sabitliyə, cəmiyyətin səmərəli inkişafı ilə dövlətin möhkəmlənməsinə xidmət edir.

Ulu öndər tərəfindən həyata keçirilən qətiyyətli iqtisadi islahatlar tez bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlandı və ölkəmizə maliyyə yardımının göstərilməsinə başlanıldı. Bu mötəbər beynəlxalq maliyyə-kredit institutları ilə sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar həyata keçirildi. Ümummilli liderin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" kəlamı Azərbaycanın dövlət başçısının yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha sübut edir. Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən TRACECA proqramı çərçivəsində Qərb-Şərq nəqliyyat dəhlizinin Azərbaycanın ərazisindən keçməsində ulu öndərin gərgin fəaliyyəti və qətiyyəti əvəzsiz rol oynamışdır. 1998-ci ilin sentyabr ayında Heydər Əliyevin təşəbbüsü ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın məhz Bakıda keçirilməsi də bunun bariz nümunəsidir.

29 dekabr 2000-ci ildə yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində ulu öndər dedi ki, ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək Şərq və Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Eyni zamanda qeyd etdi ki, neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir. 2001-ci ildə Sumqayıtdakı Etilen-Polietilen zavodunda buxar-generator qurğusunun istifadəyə verilməsi mərasimində söylədiyi "Azərbaycan dövlət müstəqilliyini əldə edəndə burada yaranmış böyük kimya kompleksinin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu biz hamımız dərk etdik. Əgər bu kompleks yaranmasaydı, bu gün müstəqil Azərbaycan bu sərvətlərə malik olmayacaqdı" fikirləri də çox qiymətlidir.

2002-ci ildə "Gülüstan" sarayında Azərbaycanın dövlət müstəqilliyinin 11-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə dahi şəxsiyyət bildirdi ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri bizim ən böyük nailiyyətlərimizdən biridir. 2003-cü ildə Vaşinqtonda keçirilən "Şərq-Qərb Enerji Dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransdakı nitqində bildirdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri təkcə iqtisadi xarakter daşımır. O, eyni zamanda Qafqazda, xüsusən Cənubi Qafqazda, Türkiyədə təhlükəsizliyi və sabitliyi təmin etmək üçün əsas vasitələrdən biridir. Azərbaycanın yeni neft strategiyası, onun qarşıya qoyduğu məsələlər, ölkənin iqtisadiyyatı və onun gələcəyi, demokratik, hüquqi, dünyəvi dövlət kimi ilbəil inkişaf etməsi, bazar iqtisadiyyatı ilə irəliləməsi - bunlar hamısı bizim əsas prinsiplərimizdir.

Bəli, ulu öndər Heydər Əliyevin arzuladığı kimi oldu. Azərbaycan dövləti qısa müddət ərzində böyük inkişaf yolu keçdi və dünya dövlətləri arasında güclü ölkəyə çevrildi. Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına dərindən bağlı olan ulu öndər Heydər Əliyev müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə ölkə iqtisadiyyatına xüsusi bir təkan verdi.

**Mustafa KAMAL,**
**"Respublika".**